# Yeni tədqiqat əsəri

***Bu yaxınlarda «Mars Print» nəşriyyatında «Paşa Qəlbinur» (Paşa İsmayıl oğlu Musayev) adlı biblioqrafik göstərici nəşr olunmuşdur.***

Biblioqrafik göstərici tərtibatı cəhətdən diqqəti cəlb edir. Vəsaitin tərtibatçı-müəllifi Eluca Atalı, elmi redaktoru Əlyusif Məmmədov, ixtisas redaktoru tibb elmlər doktoru Sevinc Əkbərova, texniki redaktoru Bədayət Şükürlü, rəyçisi tarix elmlər doktoru, professor Bayram Allahverdiyevdir. Vəsait 400 səhifə həcmindədir. Korrektoru Vüsalə Ağaəliqızı, rəssamı Azər, dizayn Cəsarət Qasımovdur.

Biblioqrafik göstəricidə Azərbaycan Tibb Universitetinin Oftalmologiya kafedrasının müdiri, tibb elmləri doktoru, professor, Amerika Oftalmologiya Akademiyasının həqiqi üzvü, şair, filosof Paşa İsmayıl oğul Musayev-Qəlbinurun elmi və bədii kitabları, elmi məqalələri, ixtiraları, ictimai-siyasi məqalələri, dövri mətbuatda çap olunmuş şerləri, eləcə də onun özü, elmi-bədii yaradıcılığı, ictimai-siyasi elmi-pedaqoji, təşkilati fəaliyyəti haqqında çap olunmuş materiallar toplanmışdır. Göstəricidə həmçinin, onun şerlərinə bəstələnmiş mahnılar həyat və yaradıcılığına həsr olunmuş müxtəlif janrlı incəsənət əsərləri barədə biblioqrafik məlumatlar sistemləşdirilmişdir.

Vəsaitə diqqəti cəlb edən mühüm cəhətlərdən biri də Tərtibçidən, Yaradıcılıq-insanın özünü ifadə vasitəsidir: Paşa Qəlbinurun düşüncələri, Paşa Qəlbinurun həyatı, elmi, pedaqoji və ictimai fəaliyyətinin əsas tarixləri, Zənginlik: Paşa Qəlbinur şəxsiyyəti və yaradıcılığı, Görkəmli şəxslərin Paşa Qəlbinurun haqqında fikirləri və mündəricatın azərbaycan, ingilis və rus dillərində verilməsidir.

Onu da qeyd etmək lazımdır ki, göstərici bundan əlavə XI bölmə, yardımçı göstəricilər və əlavələr adlı başlıqlardan ibarətdir.

Tərtibçi-müəllif Eluca Atalı «Tərtibçidən» adlı başlıqda qeyd edir ki, göstəricidə Paşa Qəlbinurun 8 kitabı, o cümlədən, 2 elmi, 5 şer və 1 fəlsəfi-bədii düşüncələri, 10 ixtiraçı, 200-ə yaxın elmi məqalə və tezisləri öz əksini tapmışdır. O, qeyd edir ki, göstəricidə –ümumiyyətlə 917 adda əsər haqqında məlumat verilir ki, burada müvafiq olaraq 11 bölmə və 15 yarım bölmədə qruplaşdırılmışdır. Biblioqrafik göstəricidən istifadəni asanlaşdırmaq məqsədilə 23 yardımçı aparat verilir.




«Yaradıcılıq – insanın özünü ifadə vasitəsidir». Paşa Qəlbinurun düşüncələri bölməsində şair, həkim kimi onun fəlsəfi fikirləri verilir.

«Həyatı, elmi, pedaqoji və ictimai fəaliyyətinin əsas tarixləri» bölməsində P.Qəlbinurun 1958-ci ildən 2005-ci ilədək olan, xüsusilə yadda qalan əsas tarixləri öz əksini tapmışdır.

«Zənginlik: Paşa Qəlbinurun şəxsiyyəti və yaradıcılığı» bölməsində P.Qəlbinur haqqında olan fəlsəfi fikirlər öz əksini tapmışdır. «İşıq tanrısı Bakıda yaşayır», «Nağıllı dünyamızı reallaşdırmışdır Qəlbinur», «Ruh ölməzdir», «İstedad+Zəhmətkeşlik+Uğur», «Şəxsiyyət+Böyük istedad=Dahilik», «Vaxt» bütün bunlar məhz P.Qəlbinura məxsus olduğunu oxuculara çatdırır.

Diqqəti cəlb edən və maraqlı başlıqlardan biri də «Görkəmli şəxslərin Paşa Qəlbinur haqda fikirləri»dir. Burada Vaqif İbrahimoğlu, Altay Məmmədov, Məhərrəm Qasımov, Kamil Vəli Nərimanoğlu, Mücayıt Mirzə, Qəhrəman Qəhrəmanov, Mirəli Seyidov, Vaqif Bayatlı Önər, Rüstəm Behrudi, Yusif Səmədoğ-

lu, Yevgeni Reyn, Vilayət Quliyev, Ramiz Rövşən, Budaq Budaqov, Sədaqət Şükürlü, Fikrət Sadiq, Qəşəm Nəcəfzadə, Arif Abdullazadə, Rəhman Babaxanlı, Səlahəddin Quliyev, Yusif İsmayıl kimi şəxslərin fikirləri öz əksini tapmışdır.

Biblioqrafik göstəricisinin I bölməsi «Elmi kitabları, məqalələri və tezisləri toplanmış və bu materiallar 1980-2003-cü illəri əhatə edərək azərbaycan, ingilis və rus dillərində verilmişdir.

II bölmə «İxtiraları» adlanır, 1979-1998-ci illəri əhatə edir və 10 ixtirası təsvir olunmuşdur.

III bölmə «Rəy verdiyi və redaktoru olduğu kitablar» adlanır. Bu bölmənin birinci yarımbaşlığı «Elmi məzmunlu kitablar» ikinci yarımbaşlığı «İctimai məzmunlu kitablar» adlanır. Burada 11 adda ədəbiyyat əks olunmuşdur.

IV bölmə «Paşa Qəlbinurun rəhbəri və opponenti olduğu dissertasiyalar» adlanır və 3 yarımbaşlıq: «Rəhbərliyi ilə müdafiə olunmuş elmlər namizədliyi dissertasiyası», «Rəhbərliyi ilə müdafiə olunmuş doktorluq dissertasiyası» və «Rəy verdiyi və opponenti olduğu dissmertasiyalar» verilir və 1999-2003-cü illəri əhatə edir. Çox təəssüflər olsun ki, təsviri zamanı səhifələri göstərilməyib.

V bölmə «Paşa Qəlbinurla hazırlanmış müsahibələr» adlanır.

Dövrü mətbuatda çap olunan bu müsahibələr 1990-2003-cü illəri əhatə edir, azərbaycan və rus dillərində verilmişdir.

Maraqlı bölmələrdən biri də «Paşa Qəlbinurun bədii əsərləri» adlanır. Bu bölmə «Bədii Kitabları», «Kitablarda və dövrü mətbuatda dərc edilmiş şerləri», «Dövrü mətbuatda dərc edilmiş əsərləri» adlı yarımbaşlıqlardan ibarət olub 1971-2003-cü illəri əhatə edir.

VII bölmə «İctimai məzmunlu məqalələri» adalanır və burada 25-ə yaxın mənbə öz əksini tapmışdır.

Növbəti bölmə «Şerlərinə bəstələnmiş mahnılar» adlanır. Burada 20-dən çox mahnı haqqında məlumat verilir. 1984-2003-cü illəri əhatə edir, həmçinin müğənni və bəstəkarları göstərilir.

IX bölmə «Paşa Qəlbinur şəxsiyyəti» haqqında yazılmış məqalələr və ona həsr olunmuş bədii əsərlər» adlanır və «Məqalələr», «Bədii əsərlər» adlı yarımbölmələrdən ibarətdir və 1981-2002-ci illəri əhatə edir.

X bölmə «Paşa Qəlbinurun şəxsiyyətinə, elmi və bədii yaradıcılığına həsr olunmuş incəsənət əsərləri» adlanır «Paşa Qəlbinura həsr edilmiş əsərlər», «Əsərlərinə çəkilmiş illüstrasiyalar» yarımbaşlıqlardan ibarətdir.

Sonuncu bölmə «Elmi və bədii yaradıcılığı haqqında əsərlər» adlanır və 2 «Elmi yaradıcılığı haqqında əsərlər», «Paşa Qəlbinurun bədii yaradıcılığı haqqında» adlı yarımbaşlıqlardan ibarət olub və burada əks olunan mənbələr azərbaycan, rus, ingilis, türk dillərində verilmişdir. 1983-2003-cü illəri əhatə edir.

Göstəricinin maraqlı hissələrindən biri də «Yardımçı göstəricilər» bölməsidir. Biblioqrafik göstəricilərdən istifadəni asanlaşdırmaq üçün 23 yardımçı göstəricidən ibarət zəngin yardımçı aparat verilmişdir ki, bu da əsərin müxtəlif əlamətlərinə görə axtarış aparmağa imkan verir.

Biblioqrafik göstəriciyə «Əlavələr» adlı başlıqda verilmişdir ki, göstərici hazır olandan sonra tapılmış 45 adda mənbədən ibarətdir.

Biblioqrafik göstəricidəki bəzi nöqsanları nəzərə almasaq, ümumiyyətlə, şəxsi biblioqrafik göstəricilər sisteminə daxil olan yeni bir vəsaitdir. İlk dəfədir ki, eyni bir şəxs (Paşa Qəlbinur) haqqında iki istiqamətdə yəni həm elmi, həm də bədii yaradılmış bir vəsaitdir.

Bu vəsait Azərbaycan biblioqrafiya elminə yeni bir töhfədir.

***B.Ələsgərov,***
***Beynəlxalq Nobel İnformasiya Mərkəzinin həqiqi üzvü***